# Riyaziyyat

1. $a^2x+4=b+9x$ xətti tənliyinin sonsuz sayda həlli olarsa, $a+b$ cəminin ən kiçik qiymətini tapın.
A) 0 B) -1 C) 1
D) 2 E) -2

2. $-5 \leq 3-2x \leq 7$ bərabərsizliyini həll edin.
A) $[-4; 1]$ B) $[-2; 4]$ C) $[-1; 4]$
D) $[-3; 1]$ E) $[-2; 2]$

3. Böyük diaqonalı 5 sm olan düzgün altıbucaqlının perimetrini tapın.
A) 12 sm B) 18 sm C) 16 sm
D) 20 sm E) 15 sm

4. $a$-nın hansı mənfi qiymətində $\begin{cases} ax+9y=1 \\ 4x+ay=7 \end{cases}$ tənliklər sisteminin həlli ***yoxdur***?
A) –4 B) –6 C) –3 D) –2 E) – 5

5. $a=\frac{\sqrt{18}+4\sqrt{2}}{2\sqrt{2}}$ ədədi hansı iki tam ədəd arasında yerləşir?
A) $(2; 3)$ B) $(0; 1)$ C) $(1; 2)$
D) $(3; 4)$ E) $(4; 5)$

6. Şəkildə $\overset{\frown}{AnB}=110°$, $\angle A-\angle B=15^0$ olarsa, $\angle A$-nı tapın.




A) 40˚ B) 80˚ C) 50˚
D) 60˚ E) 70˚

7. $a$-nın hansı ən böyük qiymətində kökləri $x_1$ və $x_2$ olan $x^2-ax-6=0$ tənliyi üçün $x_1x_2^3=-24$ olar?
A) $-2$ B) $-1$ C) 2 D) 1 E) 3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

8. Düzbucaqlı üçbucağın katetləri 8 sm və 15 sm-dir. Bu üçbucağın daxilinə çəkilmiş çevrənin radiusunu tapın.
A) 2 sm B) 4,5 sm C) 5 sm
D) 1,5 sm E) 3 sm

9. Kəsri ixtisar edin: $\dfrac{a^9-1}{(4a^3-4)(a^6+a^3+1)}$
A) 0,25 B) 2 C) 0,5 D) 4 E) 1

10. $x^2-2x+ax-1=0$ tənliyinin kökləri əks ədədlər olarsa, $a$-nın qiymətini tapın.
A) 0 B) 1 C) 2
D) $-1$ E) $-3$

11. Kəsişməsi boş çoxluq olmayan $A$ və $B$ çoxluqları üçün $n(A)<7, n(B)<8$ olarsa, $n(A\cup B)$-nin ən böyük qiyməti neçə olar?
A) 12 B) 15 C) 11
D) 10 E) 13

12. $(a+3)^2+(b+a-3)^2+(b+c+4)^2=0$ olarsa, $a\cdot b\cdot c$ hasilini tapın.
A) 90 B) 120 C) 150
D) 160 E) 180

13. Uzunluğu 26 sm olan $AB$ parçası üzərində hər hansı C nöqtəsi qeyd olunub. $BC=16$ sm olarsa, BC-nin uzunluğu AC-nin uzunluğundan neçə faiz çoxdur?
A) 30 B) 25 C) 20 D) 50 E) 60

14. $\begin{cases} x^2+y^2=45 \\ x-y=5 \end{cases}$ tənliklər sistemindən $xy$ hasilini tapın.
A) 15 B) 10 C) 12 D) 24 E) 40

15. $(x-2)^3(x-5)(x-3)^2\le 0$ bərabərsizliyini həll edin.
A) $[5;+\infty)$ B) $[2;+\infty)$ C) $(-\infty;3]$
D) $[2;5]$ E) $[0;3]$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

16. $n$ -in neçə tam qiymətində $\dfrac{n^3+5n^2+12}{n^2}$ kəsrinin qiyməti natural ədəddir?
A) 1 B) 2 C) 3
D) 4 E) 5

17. Şəkildə BC:CD=4:5, AB=12 sm olarsa, BD-ni tapın.




A) 6 sm B) 9 sm C) 12 sm
D) 18 sm E) 27 sm

18. ƏBOB ($a$;36)=$b$ olarsa, $b$-nin ən böyük qiyməti ilə ən kiçik qiymətinin cəmini tapın.
A) 45 B) 36 C) 73
D) 37 E) 54

19. $\Delta ABC$ -də $O$ nöqtəsi daxilə çəkilən çevrənin mərkəzidir. $AB=3$, $BC=5$, $DC=2$, $AD$-ni tapın.




A) 1,8 B) 1,2 C) 0,7
D) 0,8 E) 1,6

20. $\sqrt{\sqrt{6}+2}\cdot\sqrt[4]{10-4\sqrt{6}}$ ifadəsini sadələşdirin.
A) 3 B) 1 C) 2 D) $\sqrt[4]{2}$ E) $\sqrt{2}$

21. $x^2-ax+17$ çoxhədlisinin ən kiçik qiyməti 8-ə bərabər olarsa, $a$-nın modulunu tapın.
A) 4 B) 5 C) 6
D) 9 E) 10

22. $4<a<5$ və $3<b<4$ olarsa, $4a-b$ ifadəsinin ən böyük tam qiymətini tapın.
A) 18 B) 12 C) 16 D) 14 E) 10

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

### *Açıq tipli test sualları:*

23. *ABCD* paraleloqramının A və D bucaqlarının tənbölənləri qarşı tərəfi uyğun olaraq E və F nöqtələrində kəsir.AB=6, AD=14 olarsa, EF-i tapın.(tənbölənlər paraleloqramın daxilində kəsişmir)

24. Diametri 12 sm olan çevrənin daxilinə çəkilmiş çoxbucaqlının perimetrinin ən böyük tam qiymətini tapın.

25. $\begin{cases} x+y=2a+6 \\ x-y=2 \end{cases}$ tənlikər sistemindən xy hasilinin ən kiçik qiymətinin modulunu tapın.

26. Bərabəryanlı trapesiyanın diaqonalı iti bucağının tənbölənidir.Trapesiyanın kiçik oturacağı 10 sm, böyük oturacağı 22 sm olarsa, diaqonalın tam hissəsini tapın?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

27. Uyğunluğu müəyyən edin:
1. $x^2 - 2x + 3 > 0$
2. $|2x - 3| \leq 0$
3. $\sqrt{x-3} \leq 2$

a.ən kiçik tam həlli 3-ə bərabərdir.
b. həlli bütün həqiqi ədədlər çoxluğudur.
c. ən böyük həlli 7-yə bərabərdir.
d. həlli yoxdur.
e. həlli yalnız $x$=1,5-dir.

### Situasiya

Bir qutuda radiusu 4 sm olan dairə formasında,ağ və qara rəngdə olmaqla 10 karton kağız var.Bir ağ kartonun qiyməti 2 qəpik , bir qara kartonun qiyməti isə 3 qəpikdir.

28. Bütün kartonların alınmasına 24 qəpik xərclənibsə qutuda neçə ağ karton var?

29. Dairə formasında olan kartonlar iti bucağı $30^0$ olan romb formasında çərçivəyə salınmalıdır.Belə romblardan ən kiçiyinin perimetrini tapın?

30. Qutudan təsadüfi olaraq üç karton kağız çıxarılır.Çıxarılan karton kağızlardan ən azı ikisinin ağ rəngdə olması ehtimalını tapın.

## Coğrafiya

31. Arid-denudasiya proseslərinin yayıldığı ərazi :
A) Böyük Qafqazın yüksək dağlığı
B) Qanıx – Əyriçay vadisi
C) Kür – Araz ovalığı
D) Talış dağlarının alçaq hissəsi
E) Ceyrançöl – Acınohur alçaq dağlığı

32. Xəritə-sxemdə seysmik zonada yerləşən məntəqə üçün doğru fikirləri seçin.




1. Tavaların ayrılma sərhədində yerləşir
2. And –Kordilyer geosinklinalında yerləşir
3. Sakit okean və Hind-Avstraliya tavalarının sərhədində yerləşir
4. Ərəbistan və Şərqi Avropa tavalarının toqquşma zonasında yerləşir
5. Avropa-Asiya (Alp-Himalay) seysmik qurşağında yerləşir

A) 1,3 B) 2,3 C) 1,5
D) 4,5 E) 2,4

33. Sxemdə təsvir olunan litosfer tavalarının hərəkətinin nəticələri:




1. İslandiya adası yaranmışdır
2. Çili-Peru novu yaranmışdır
3. Rift dərəsi formalaşmışdır
4. Orta okean silsiləsi yaranmışdır
5. And dağları formalaşmışdır

A) I – 1, 4, 5; II – 2, 3
B) I – 2, 3, 5; II – 1, 4
C) I – 2, 3, 4; II – 1, 5
D) I – 1, 5; II – 2, 3, 4
E) I – 2, 5; II – 1, 3, 4

34. Eyni dərinliyə malik olan nöqtələri birləşdirən əyri xətlər adlanır:
A) izobat B) izobar C) izogiyet
D) izoqamin E) izoterm

35. Fiziki aşınma prosesinin sürətli getdiyi məntəqələr:




A) 1, 2, 5 B) 1, 3, 6 C) 3, 4, 6
D) 2, 4, 6 E) 2, 4, 5

36. Uyğunluğu müəyyən edin
*I. Divergent sərhəd*
*II. Konvergent sərhəd*
1. İslandiya adası
2. Balkan yarımadası
3. Kaliforniya yarımadası
4. Tasmaniya adası
5. Skandinaviya yaraımadası
6. Yeni Zelandiya adası

A) I – 1,6 ; II – 3,5
B) I – 1,3 ; II – 2,4
C) I – 2,5 ; II – 1,3
D) I – 4,6 ; II – 3,5
E) I – 1,3 ; II – 2,6

37. Azərbaycanın relyefi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Böyük Kirs dağının yerləşdiyi dağ silsiləsi xarici ölkə ilə həmsərhəddir.
2. Abrazion-akkumulyativ düzənliklərin çox hissəsi dəniz səviyyəsindən aşağıda yerləşir.
3. Dağlıq ərazilərdə antropogen relyef formaları geniş yayılmışdır .
4. Qanıx-Əyriçay və Gəncə-Qazax düzlərində gətirmə konusları geniş yayılıb.
5. V-şəkilli dərələr əsasən düzənlik ərazilər üçün səciyyəvidir.
6. Arid-denudasion relyef formalarına Ceyrançöl-Acınohur alçaq dağlığında çox rast gəlinir.

A) 1, 3, 5 B) 1, 3, 6 C) 3, 4, 6
D) 2, 4, 6 E) 2, 4, 5

38. 21 martda Günəş şüalarının 50° bucaqla düşdüyü məntəqələr şimal yarımkürəsində və bir-birindən $50^0$ uzunluq fərqində yerləşirlər. Məntəqələr arasındakı məsafə 1: 7000000 miqyaslı xəritədə neçə sm olar?
A) 14 B) 61 C) 79
D) 25 E) 127

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

39. Xəritə-sxemdə yanar şist, mis, xromit yataqlarının rəqəmlərə uyğun olan müvafiq sırasını müəyyən edin.



A) 2, 1, 6 B) 3, 2, 6 C) 5, 6, 4
D) 1, 5, 3 E) 3, 2, 4

40. Akkumulyativ düzənlikləri seçin.
1. Tibesti 2. Atlantiksahili
3. Böyük Çin 4. Qviana
5. Tibet 6. Orinoko
A) 1, 4, 5 B) 2, 3, 6 C) 4, 5, 6
D) 1, 2, 3 E) 3,4, 6

41. Uyğunluğu müəyyən edin.
1. Sakit okean odlu qövsü
2. Orta Atlantik
3. Alp-Himalay
a. Vezuvi
b. Apo
c. Orisaba
d. Hekla
e. Etna
A) 1-c, e; 2-a, b; 3-d B) 1-b, c; 2-d; 3-a, e
C) 1-c, d; 2-b; 3-a, e D) 1-b, d; 2-a, c; 3-e
E) 1-a, c; 2-b, d; 3-e

42. Təyyarə Bakı ilə eyni enlikdə yerləşən və ondan $54^0$ qərbdə olan məntəqədən yola çıxdı. O, əvvəlcə $0^0$ , sonra isə $180^0$ -lik azimutla eyni meridian çevrəsi üzrə cəmi 11100 km məsafə qət etdi. Təyyarənin çatacağı məntəqə ilə Bakı arasındakı yerli vaxt fərqini hesablayın.
A) 8 saat 24 dəqiqə B) 3 saat 36 dəqiqə
C) 2 saat 54 dəqiqə D) 4 saat 12 dəqiqə
E) 11 saat

43. Şərqi Sakit okean qalxmasından keçən rift dərəsi hansı tavaları bir-birindən ayırır ?
A) Şimali Amerika və Karib
B) Hind-Avstraliya və Sakit
C) Sakit okean və Filippin
D) Sakit okean və Naska
E) Naska və Cənubi Amerika

44. Anlayışı müəyyən edin.




A) Coğrafi təbəqə B) Yer qabığı
C) Mantiya D) Litosfer
E) Atmosfer

45. Cənubi Avropa regionu hansı seysmik qurşaqda yerləşir?
A) Sakit okaen odlu qövsü
B) Alp – Himalay
C) And- Kordilyer
D) Şərqi Afrika
E) Orta Atlantik

46. Abraziya prosesinin səciyyəvi olduğu ərazilər:



A) 3,4 B) 1,5 C) 1,3 D) 2,5 E) 2,4

47. Geoloji era, dağəmələgəlmə və dağların müvafiqliyi hansı sıralarda ***pozulmuşdur?***

| | | | |
|---|---|---|---|
| 1 | Paleozoy→ | Kaledon → | Altay |
| 2 | Kaynazoy→ | Alp→ | Qafqaz |
| 3 | Mezozoy→ | Kimmeri→ | Kordilyer |
| 4 | Paleozoy→ | Kaledon→ | Kunlun |
| 5 | Kaynazoy→ | Alp→ | And |
| 6 | Mezozoy→ | Hertsin→ | Verxoyansk |

A) 3,4 B) 5,6 C) 1,5
D) 2,3 E) 4,6

48. Litosfer tavalarının sərhədlərindən uzaqda yerləşən düzənliklər:
A) Turan, İran, Mesopotamiya
B) Anadolu, Kür-Araz, Böyük hövzə
C) Missisipi, Kolxida, Mərkəzi ovalıq
D) Padan, Braziliya, Tibet
E) Polşa, La-Plata, Böyük Çin

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

49. Aşağıdakı xüsusiyyətlər hansı materikə aiddir ?
*- Geosinklinal ərazisi Sakit okean odlu qövsünə daxildir*
*- Geosinklinalın mərkəzi hissəsi yüksək plato və yaylalrdan ibarətdir*
*- Şərqində yerləşmiş qədim dağ sistemi güclü parçalanmaya məruz qalmışdır*
A) Afrika B) Avstraliya
C) Avrasiya D) Şimali Amerika
E) Cənubi Amerika

50. Cədvəli tamamlayın.

| N | *Faydalı qazıntı yataqları* | *Yerləşdiyi tektonik zona* | *Faydalı qazıntılar* |
|---|---|---|---|
| 1 | Katexçay | | Polimetal |
| 2 | | Kiçik Qafqaz | Kükürd |
| 3 | Mollakənd | | Neft |

A) 1- Kür ; 2- Çovdar ; 3- Böyük Qafqaz
B) 1- Böyük Qafqaz ; 2- Toğanalı ; 3- Kür
C) 1- Ön Qafqaz ; 2- Ağyataq ; 3- Böyük Qafqaz
D) 1- Araz əyilməsi ; 2- Göydərə ; 3- Kiçik Qafqaz
E) 1- Böyük Qafqaz ; 2- Ağcakənd ; 3- Ön Qafqaz

51. Ölkəmizin ən böyük sinklinoriumu üçün səciyyəvidir:
1. Arid-denudasiya prosesləri üstünlük təşkil edir
2. Səthi IV dövrün vulkanik süxurları ilə örtülüdür
3. Akkumulyativ mənşəli allüvial düzənlikdir
4. Antropogen yaşlı çökmə süxurlar üstünlük təşkil edir
5. Qərbindən şərqinə doğru hündürlüyü artır
6. Eyni adlı tektonik zonada yerləşir
A) 2, 3, 4 B) 1, 4, 5 C) 1, 3, 5
D) 3, 4, 6 E) 2, 5, 6

52. Afrika materikində əyilmə və sınma zonalarında yerləşən coğrafi obyektləri şəkillərlə uyğunlaşdırın.
I. Konqo II. Ruvenzori III. Tanqanika




A) I – 1, II – 2, III – 3
B) I – 2, II – 1, III – 3
C) I – 1, II – 3, III – 2
D) I – 2, II – 3, III – 1
E) I – 3, II – 1, III – 2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam

**Açıq tipli test sualları:**

53. XVIII saat qurşağının orta meridianına aid olan xüsusiyyətlər
1. 90° qərb uzunluğuna uyğun gəlir
2. Afrika materikindən keçir
3. Üzərində yerləşən bütün məntəqələrdə yerli vaxt eynidir
4. Qurşaq vaxtı 0-cı qurşaqdan 6 saat geridir
5. 120° şərq uzunluğuna uyğun gəlir
6. Bakı şəhəri ilə arasında yerli vaxt fərqi 9 saat 40 dəqiqədir

54. Günəşin üfüqdə görünən hərəkətinin aid olduğu məntəqə ilə Bakı arasında yay gündönümündə Günəş şüalarının düşmə bucaq fərqi neçə dərəcəyə bərabərdir ?




55. Kür tektonik çökmə zonasında yerləşir:
1. Ceyrançöl – Acınohur alçaq dağlığı
2. Samur – Dəvəçi ovalığı
3. Qanıx-Əyriçay vadisi
4. Qobustan alçaq dağlığı
5. Qarabağ düzü
6. Təngi dərəsi

56. Dağ silsilələrini hündürlüyünə görə (yüksəkdən alçağa doğru) ardıcıl düzün.



57. Uyğunluğu müəyyən edin.
1. Divergent sərhəd
2. Konvergent sərhəd
3. Platforma sahəsi




**Situasiya**

Sizə təqdim olunmuş şəkil-sxemə əsasən 58 - 60 –cı sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.




58. Platformanın quruluşu sxemində rəqəmlər nəyi ifadə edir?
1-

2-

3-

4-

59. Sxemdə 3 və 4 rəqəminə uyğun gələn relyef formalarına aid 2 nümünə qeyd edin .
3-

4-

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1

60. Xəritə -sxemə əsasən qədim və cavan platformaları qruplaşdırın.




| Qədim platformalar | Cavan platformalar |
|---|---|
| 1- Şimali Amerika | |

## Tarix

61. XIII-XIV əsrlər Azərbaycan memarlıq abidələrinə aid ***deyil:***
A) Bərdə türbəsi
B) Bayıl qalası
C) Olucaytu Xudabəndə türbəsi
D) Təbrizdə Qeysəriyyə bazarı
E) Ramana qalası

62. Kuti və Lullubi dövlət qurumlarının Akkad dövləti ilə münasibətlərinin nəticəsinə aid ***ümumi*** cəhət:
A) Şumer şəhər dövlətlərinin himayədarına çevrilmələri
B) Akkad dövlətinin süquta uğradılması
C) Akkad hökmdarlarının məğlub edilməsi
D) Manna dövlətinin hərbi yardımından istifadə edilməsi
E) Süquta uğrayaraq xırda vilayətlərə parçalanmaları

63. Alban Arşakiləri dövründə Albaniya dövləti üçün xarakterikdir:
1. Varaz Qriqor tərəfindən idarə olunması
2. Siyasi quruluşunun mərkəzləşdirilmiş feodal dövləti olması
3. Mani təliminin yayılması
4. Cavanşir tərəfindən Xəzərlərin məğlub edilməsi
5. Qəbələnin paytaxt kimi fəaliyyət göstərməsi
A) yalnız 5 B) 2,3 C) 2,5 D) 1,5 E) 3,4

64. Xəritədə paytaxtları rəqəmlər ilə işarələnmiş dövlətlərin müvafiq olaraq XI əsrin birinci yarısı (1) və XII əsrin ikinci yarısı (2) tarixləri üçün xaraterikdir:




A) Bütün Azərbaycan ərazisinin vahid halda birləşdirilməsi
B) Paytaxtın köçürülməsi
C) Fəaliyyətlərinin sona çatması
D) Səlcuq hücumlarına məruz qalmaları
E) Zəlzələ nəticəsində paytaxt şəhərin dağılması

65. Atabəylər (Eldənizlər) dövlətinin mövcudluğu dövrünə uyğun gəlir:
A) Gəncənin Qoşa Qala qapılarının hazırlanması
B) I Fəribürzün şirvanşah titulu daşımaqdan məhrum edilməsi
C) Şəmsəddin Eldənizin Arslan şahın atabəyi təyin edilməsi
D) Tamarın Şirvanı Gürcüstana birləşdirmək cəhdinin qarşısının alınması
E) Tiflis müsəlman əmirliyinin ləğv olunması

66. II Göytürk və Xəzər xaqanlıqları üçün oxşar cəhətdir:
A) Musəviliyin dövlət dini elan edilməsi
B) Çindəki Tan sülaləsinin himayə edilməsi
C) Hakim sülalənin Aşina nəslindən olması
D) VIII əsrin birinci yarısında süquta uğramaları
E) Paytaxt şəhərin ərəblər tərəfindən ələ keçirilməsi

67. Azərbaycanın XIII əsrin 20-ci illəri üçün xarakterikdir:
1. Cəlaləddinin yürüşünə məruz qalması
2. Ağsunqurilər dövlətinin süquta uğraması
3. Cormoğon noyonun rəhbərliyi ilə monqol hücumunun baş verməsi
4. II Axsitanın Hülakülərin vassalına çevrilməsi
5. Şirvanşahlar dövlətinin Slavyan hücumuna məruz qalması
A) 1,2 B) 2,4,5 C) 2,3 D) 3,5 E) 1,3,4

68. “Yüzillik müharibə” nin Fransanın qələbəsi ilə başa çatmasında rol oynadı:
A) “Qara ölüm” adlanan vəba epidemiyasının yayılması
B) İngiltərədə Al qızılgül və Ağ qızılgül müharibəsinin başlanması
C) XI Lüdovikin mərkəzləşdirmə siyasəti
D) Rekongista hərəkatının başlanması
E) Daimi qoşunun yaradılması və yeni silah olan toplardan istifadə

69. Uyğunluğu müəyyən edin:

Azərbaycan XV əsrdə

| **1.** Qaraqoyunlu dövləti | **2.** Ağqoyunlu dövləti |
|---|---|
| **a.** Sərdrud düzündə Teymuri Əbu Bəkrin məğlub edilməsi | **a.** Qara Osman bəyin Diyarbəkri mərkəz seçməsi |
| **b.** I İbrahimin asılı hala salınması | **b.** Gürcü çarı VI Baqrat ilə sülh bağlanması |
| **c.** Bayandurlar nəslindən olan Pəhləvan bəy tərəfindən idarə edilməsi | **c.** Osmanlı sultanı II Bəyazid ilə dostluq münasibətlərinin yaradılması |

A) 1-b; 2-a,c B) 1-a; 2-b,c C) 1-a,c; 2-b
D) 1-b,c; 2-a E) 1-b; 2-b,c

70. Şeyx Cüneyddən fərqli olaraq Şeyx Sultanəli:
A) XV əsrin ikinci yarısında hakimiyyətdə olmuşdur
B) Ərdəbil hakimliyinin rəhbəri olmuşdur
C) Padşah Uzun Həsən tərəfindən Ərdəbildə taxta oturdulmuşdur
D) Şirvana və Dağıstana yürüşlər təşkil etmişdir
E) Ağqoyunlu dövlətinin mövcud olduğu dövrdə fəaliyyət göstərmişdir

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

71. Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. İlk əkinçilik vərdişlərinin yaranması
b. İstehsal təsərrüfatının mövcud olması
c. Homo sapiens adlandırılan insan tipinin mövcud olması
d. Daş alətlərin cilalanması və deşilməsinin öyrənilməsi
e. Təsərrüfatda kişi əməyinin ön plana keçməsi
A) 1-b; 2-c,e; 3-a; 4-d
B) 1-d; 2-e; 3-b; 4-c
C) 1-a; 2-e; 3-d; 4-b,c
D) 1-c,d; 2-e; 3-a; 4-b
E) 1-b; 2-d; 3-a; 4-c

72. Hadisə və nəticə əlaqəsi ***doğru*** verilmişdir:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | 1917-ci ilin fevralında Rusiyada inqilab baş verməsi | Müvəqqəti hökumətin devrilməsi |
| 2 | Ərzincan barışığının imzalanması | Qafqaz cəbhəsində əməliyyatların dayandırılması, rus qoşunlarının bölgədən tamamilə çəkilməsi |
| 3 | 1917-ci il Oktyabr çevrilişinin baş verməsi | Rusiyada Bolşeviklər tərəfindən sovet hakimiyyətinin qurulması |
| 4 | Cənubi Qafqaz Komissarlığının fəaliyyətini dayandırması | Çar II Nikolayın hakimiyyətdən imtina etməsi |
| 5 | Brest-Litovsk müqaviləsinin imzalanması | Cənubi Qafqaz Seyminin fəaliyyətə başlaması |

A) 1,2 B) 2,3 C) 3,5 D) 2,4 E) 1,5

73. 1905-ci ilin dekabrında Tehranda inqilabi hərəkatın başlanmasında qığılcım rolunu oynadı:
A) Məşrutənin qəbul edilməsi
B) Tacirlərə qarşı haqsızlıqlar
C) Məclisin çağırılması
D) Xarici məmurların ölkədən qovulması
E) Ali ruhanilərin taxıl möhtəkirliyi

74. Qədim Albaniya dövlətinin tarixi ilə bağlıdır:
A) E.ə IV əsrin əvvəllərində meydana gəlməsi
B) Cənub sərhədlərinin Dəclə və Fərat çaylarının yuxarı axarlarına qədər çatması
C) Makedoniya imperiyası ilə siyasi əlaqələrinin mövcud olması
D) Qul əməyindən istifadə olunması
E) Eranın 20-ci ilində dövlətçiliyinə son qoyulması

75. Mesopotamiya əhalisinin iqtisadi həyatında baş vermiş yeniliklərdəndir:
A) Mixi yazı sisteminin yaradılması
B) Astronomiyada bürclərin qrafikinin tərtib edilməsi
C) Dünyada ilk dəfə sadə cərrahi əməliyyatların aparılması
D) Günəş saatının ixtira edilməsi
E) Daşınmanı asanlaşdıran arabalardan istifadə

76. Xəritədə qara rəng ilə işarələnmiş ərazilərin tarixi üçün ümumi cəhətdir:



1. Makedoniya ordusu ilə mübarizə
2. Roma işğalına məruz qalmaları
3. e.ə II minillikdə yadelli tayfaların yürüşünə məruz qalması
4. e.ə III əsrdə vahid dövlətdə birləşdirilməsi
5. V əsrdə German hücumlarının baş verməsi
A) Yalnız 3 B) 4,5 C) 1,3 D) Yalnız 4 E) 1,2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

77. I və II mətndə bəhs edilən şəxslərin fəaliyyəti üçün oxşar cəhətdir:
**Mətn 1**
Bizans feodallarına qarşı mübarizədə Səlcuq sultanından dəstək aldı. Qaracahisar və digər Bizans valilərinin – təkfurların qalalarını bir-birinin ardınca fəth etdiyinə görə Səlcuq sultanı tərəfindən mükafatlandırıldı.
**Mətn 2**
Onun ən böyük nailiyyəti Bizansın Anadolu torpaqlarından qovulması oldu. Dövlətin sərhədləri Egey dənizindən Konstantinopoladək genişləndi. Balkanlara hücum üçün böyük əhəmiyyətə malik olan Gelibolu qalası ələ keçirildi.
A) Paytaxtın köçürülməsi
B) Yeni dövlətin əsasının qoyulması
C) Sultan tituluna sahib olması
D) XIV əsrin birinci yarısında hakimiyyətdə olmaları
E) Səlcuq imperatorluğunun idarə edilməsi

78. Dehli sultanlığı Məmlüklər sülaləsinin hakimiyyəti dövründə:
A) Monqol hücumlarına qarşı mübarizə aparırdı
B) Panipat döyüşündə məğlub oldu
C) Aqra şəhərini paytaxta çevirdi
D) Hərbçilərə qulluq müqabilində pul şəklində maaş verilməyə başlandı
E) Qurlular dövləti məğlub edildi

79. Yustinianın slavyan tayfalarının Balkan yarımadasında məskunlaşmalarına güzəştə getməsinin nəticəsində:
A) Bizansı feodal ara müharibələri bürüdü
B) Səlcuq türkləri ilə mübarizədə müttəfiq qazandı
C) Vikinqlərin qarətçi yürüşlərinin qarşısı alındı
D) Böyük Karl ilə mübarizədə müttəfiq qazandı
E) Bizansda quldarlıq qaydaları feodalizm ilə əvəz olunması sürətləndi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

80. Uyğunluğu müəyyən edin:




A) 2,4 B) 1,6 C) 3,5 D) 2,6 E) 4,5

81. Xubilay xanın hakimiyyəti dövrü üçün xarakterikdir:
1. Cənubi Çinin ələ keçirilməsi
2. Mərkəzi Asiyanın işğalının başa çatdırılması
3. Xarəzmşah Məhəmməd ilə mübarizə
4. Paytaxtın Pekinə köçürülməsi
5. Camuqanın məğlub edilməsi
A) 1,4 B) 1,3,4 C) 4,5 D) 1,2 E) 1,2,5

82. III Xaçlı yürüşünün nəticəsində:
A) Konstantinopol ələ keçirildi
B) Səlahəddin Əyyubi Xaçlıları məğlub etdi
C) İngilis və Fransız krallarının Qüdsü ələ keçirmək istəyi baş tutmadı
D) Latın imperiyası yaradıldı
E) Edessa xaçlılar tərəfindən ələ keçirildi

***Açıq tipli test sualları:***

83. *XIV əsrin sonlarında Azərbaycanda hakimiyyəti ələ almağa çalışan feodallar bir tərəfdən əmirin canişinlərinə qarşı vuruşur,digər tərəfdən öz aralarında mübarizə aparırdılar. Təbriz şəhəri Azərbaycanın açarı hesab edildiyi üçün onun ələ keçirilməsi əsas məqsəd sayılırdı. Yerli feodallar əsas qüvvələri birləşdirmək əvəzinə, bir-biriləri ilə vuruşurdular. Nəticədə Təbriz şəhəri itirildi.*
Mətndə bəhs edilən dövrdən fərqli olaraq Hülakülərin dövründə Azərbaycanda:
1. Təbriz paytaxt kimi fəaliyyət göstərirdi
2. Kəndlilərin bir yerdən digərinə keçməsi qadağan olunmuşdu
3. Ali Monqol xaqanının canişini hakimiyyətdə idi
4. Cəlairilər sülaləsinin hakimiyyəti davam edirdi
5. İqtisadi cəhətdən güclü və mərkəzləşdirilmiş dövlət mövcud idi

84. Qızıl Ordu dövlətindən fərqli olaraq Teymurilər dövləti:
 1. XVI əsrin əvvəllərində süquta uğradı
 2. Moskvanı tabe etdi
 3. Hülakülər dövləti ilə mübarizə aparırdı
 4. Dehli sultanlığını tabe etdi
 5. Şeybanilər tərəfindən məğlub edildi

85. Xronoloji ardıcıllığı müəyyən edin:
 1. Bakıda ilk qadın gimnaziyasının açılması
 2. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin fəaliyyətə başlaması
 3. İlk qəza məktəbinin açılması
 4. Bakıda ilk Azərbaycan qiraətxanasının yaradılması

86. VIII əsrin birinci yarısına aiddir:
 1. Müsəlmanların Sasanilər üzərində parlaq qələbələri
 2. Ərəblərin Pireney yarımadasına daxil olması
 3. Dəməşqin paytaxt şəhər kimi fəaliyyət göstərməsi
 4. Xəlifə Mötəsimin Bizansa qarşı mübarizəsi
 5. Bədr döyüşündə müsəlmanları qələbə qazanması

87. Uyğunluğu müəyyən edin:
 1. İbrahim ağa Vəkilov
 2. Səməd bəy Mehmandarov
 3. Əliağa Şıxlinski
 a. Çarın yeganə müsəlman yavəri idi
 b. Brilliant ilə bəzədilmiş "Georgi silahı" ilə təltif olunmuşdur
 c. Hərbi topoqraf kimi fəaliyyət göstərmişdir
 d. "Rus artileriyasının tanrısı" adlandırılırdı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Time/BirlikTeam1

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

XV əsrin əvvəllərində Azərbaycanın Teymuri hakimiyyəti altından çıxması və birləşməsi üçün çox əlverişli şərait yaranmışdı. O zaman beynəlxalq mübarizələr meydanında Azərbaycan üçün təhlükə yarada biləcək qüvvə yox idi. Teymurun vəfatından sonra onun işğalçı siyasəti nəticəsində yaranan Teymurilər dövləti tezliklə dağılmağa başladı. Müxtəlif ölkələrdə hökmranlıq edən Teymuri şahzadələri arasındakı ixtilaflar nəticəsində bir sıra əyalətlər bu xanədanın təsir dairəsi altından çıxmış, müstəqillik qazanmışdı. Teymurilər arasındakı feodal hərc-mərcliyi və hakimiyyət uğrunda mübarizə davam edirdi. Bu vəziyyət Azərbaycanda da hökm sürməkdə idi.

88. Mənbədə bəhs feodal-hərc mərcliyi və hakimiyyət uğrunda mübarizə həbsdən azad olunmasına şəraiti yaratmış iki şəxsin adını qeyd edin:

89. Mənbədə bəhs olunan tarixi şəraitin Azərbaycan üçün nəticələrini müəyyən edin: (Azı bir nəticə)

90. Tarixi biliklərinizə əsasən Azərbaycanda mənbədə bəhs olunan hakimiyyət uğrunda mübarizə dövründə mövcud olan dövlətləri qeyd edin: